**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**NƏRGİZ AYDIN qızı RƏSULOVA**

# GƏNCƏ MÜSTƏQİLLİK DÖVRÜNDƏ (1991-2010-CU ILLƏR)

İxtisas: 5503.02 - Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**BAKI - 2017**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **F.N.MƏMMƏDOV**

**Rəsmi opponentlər:**

tarix üzrə elmlər doktoru, professor **Ə.İ.MUXTAROVA**

tarix üzrə fəlsəfə doktoru **E.Ə.MƏHƏRRƏMOV**

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin Azərbaycan tarixi kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "___"________2017-ci il tarixli iclasında saat __$^{00}$- da keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı, akad. Z.Xəlilov küç., 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ___________2017-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi**

**tarix üzrə elmlər doktoru, professor S.Y.SÜLEYMANOVA**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hər bir ölkənin sosial-iqtisadi, elmi-mədəni inkişafı, həmin ölkədə mövcud olan şəhərlərin hərtərəfli inkişafı ilə vəhdətdədir. Çünki şəhər bütövlükdə əhalinin məskunlaşma mərkəzi, onun fəal hissəsi olan əmək ehtiyatlarının, işçi qüvvəsinin ən çox təmərküzləşdiyi yer, istehsal sahələrinin, nəqliyyat qovşaqlarının, inzibati, təşkilat-təsərrüfat və ticarətə meyl edən sahələrin kompleks inkişaf etdiyi ərazidir.

Şəhər problemləri bir qayda olaraq bütövlükdə ölkənin sosial-iqtisadi inkişaf problemlərini özündə əks etdirir. XXI əsrdə dünyada, həmçinin Azərbaycanda sosial-iqtisadi, mədəni funksiyaların əksər hissəsi şəhərlər sisteminin payına düşür. Ona görə də belə nəticə çıxarmaq olar ki, şəhərlər dəqiq tədqiqat obyektinə çevrilməlidir. Çünki bir qayda olaraq, şəhərlərin inkişafı şəhəryanı ərazilərin inkişafına da həlledici təsir göstərir[1]

XX əsrin sonlarından başlayaraq dünyada gedən qloballaşma prosesləri XXI əsrdə daha da sürətlənmişdir. Məhz bu proses dövlətlərin iqtisadi, siyasi, sosial, mədəni və informasiya həyatında bir-birindən qarşılıqlı asılılığını bir qədər də gücləndirmişdir. Planetar şəhərlər də bu proseslərdən kənarda qalmır. Əksinə daha fəal rol oynayır. Əvvəlki dövrlərdə olduğu kimi, müasir dövrdə də istər bütün dünyada istərsə də, Azərbaycanda sənaye potensialının artırılması, sənaye mərkəzlərində iqtisadi fəallığın yüksəldilməsi, iqtisadi mərkəzəqaçma hərəkatının güclənməsi, kombinləşmə prosesinin miqyasının genişlənməsi daha çox əhalinin sənaye mərkəzində və onun ətrafında cəmlənməsi ilə nəticələnir. Məhsuldar qüvvələrin ölkə ərazisində mütənasib paylanmasına yönəlmiş tarazlı regional inkişaf xətti, Azərbaycanın sənaye mərkəzlərinin formalaşması prosesinin tənzimlənməsi imkanlarını genişləndirmişdir. Əlbəttə, əhali böyük şəhərlərin və sənaye mərkəzlərinin üstünlüklərindən istifadə baxımından sərbəstdir və onların sənaye rayonlarında cəmləşməsi prosesinə birtərəfii hərəkat kimi baxmaq doğru olmazdı[2].

Bakı, Gəncə, Sumqayıt, Naxçıvan, Mingəçevir şəhərləri də daxil edilməklə Azərbaycanda bir sıra sənaye mərkəzlərinin yaranması sənayenin

---

[1] Abdullayeva M.Ə. Şəhərlərin müasir vəziyyəti və inkişaf problemləri / Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi. Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı: Kooperasiya, 2010, s.348-349.

[2] Əfəndiyev V.Ə. Urbanizasiya və Azərbaycan şəhər yaşayış məskənləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2002, s.148.

inkişafı hesabına formalaşmışdır. "Şəhər yaşayış məntəqələrinin inkişaf potensialı sənaye istehsalı, onun quruluşu, ixtisaslaşması ilə müəyyən edilir. Çoxsahəli sənaye strukturuna malik olan şəhər yaşayış məntəqələrinin fəaliyyətində, onların "cəlbedici" əraziləri, təbii, iqtisadi, əmək ehtiyatı potensialından istifadə edilməsi üçün geniş imkanlara malikdir" [1] .Bütün bunlar dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan şəhərlərinin hərtərəfli öyrənilməsini, tədqiqini aktuallaşdırır. Məhz ona görə ki, dövlət müstəqilliyinin bərpasından sonra keçən zaman kəsiyində, Azərbaycan olduqca çətin, keşməkeşli yol qət edib bütün sınaqlardan keçərək, təhlükələrin qarşısını alaraq müstəqilliyini qoruyub saxlamış, dövlətçiliyini bütün dünyaya nümayiş etdirmiş və sübut etmişdir ki, onun müstəqil yaşamaq hüququ və potensialı vardır.

Qısa bir zaman kəsiyində ölkənin ümumi tarixinin ayrılmaz hissəsi olan Azərbaycan şəhərlərinin, o cümlədən ölkənin tarix boyu siyasi, iqtisadi, sosial və mədəni həyatında mühüm rol oynamış Gəncənin də dövlət müstəqilliyinin bərpasından sonra hərtərəfli inkişaf tarixinin öyrənilməsi və tədqiqi, gələcək nəsillərə çatdırılması az elmi əhəmiyyət kəsb etmir.

Azərbaycanın digər şəhərləri kimi Gəncənin də bu illər ərzində, ələlxüsus 2003-2010-cu illər ərzində infrastrukturundakı ciddi yeniləşmələr, obyektlərin tikilib istifadəyə verilməsi, tarixi abidələrin bərpası, bir sıra mədəni obyektlərin inşası, təmir quruculuq işləri, tarixi ənənələr saxlanılmaqla şəhərin müasirləşməsi kimi çox böyük işlərin görülməsində sosial-iqtisadi inkişafa dair Dövlət Proqramlarının da müvəffəqiyyətlə icrasından ətraflı bəhs olunması mövzunun aktuallığını daha da artırır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın xronoloji çərçivəsi 1991-2010-cu illəri, yəni 20 illik bir dövrü əhatə edir. Məlum olduğu kimi 1991-ci ildən sonra Azərbaycan tarixində keyfiyyətcə yeni bir dövr başladı. Dövlət müstəqilliyi bərpa edildikdən sönra imperiya boyunduruğundan xilas olmuş Azərbaycanın hərtərəfli inkişafı üçün yeni bir tarixi səhifə açıldı. Qısa bir zaman kəsiyində Azərbaycan xalqı demokratik-hüquqi, dünyəvi dövlət qurdu, onun təsisatlarını yaratdı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə kövrək addımlarını atan gənc dövlətin yaşaması və inkişaf etməsi üçün çoxsaylı qanunlar qəbul edildi. Bazar iqtisadiyyatı yolu

---

[1] Əfəndiyev V.Ə. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı: Bakı Universiteti, 2002, s.149-150.

ilə bütün sahələrdə islahatlar apararaq çox böyük nəticələrə nail olundu. Qeyd olunan illər ölkə şəhərlərinin, yaşayış məntəqələririnin, o cümlədən Gəncənin sosial-iqtisadi, mədəni həyatının inkişafında da yeni bir dövr idi. Araşdırmanın xronoloji çərçivəsinin son hüdudu olaraq 2010-cu ilin götürülməsi də təsadüfi deyil. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra respublikamızda hərtərəfli inkişaf üçün, o cümlədən şəhərlərin inkişafı üçün möhkəm zəmin yaradıldı. Bu zəmin üzərində 2010-cu ilə qədər, yəni müstəqilliyin 20 ili ərzində Azərbaycanın digər şəhərləri kimi, Gəncənin də sosial-iqtisadi inkişafında ciddi təbəddülat nəzəri cəlb etməyə bilməz. Məhz bu illər görülən dövlət tədbirlərinin uğurlu icrasının dinamikasını öyrənməyə imkan verir və vacib edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan şəhərlərinin tarixi bütün dövrlərdə tədqiqatçıların diqqət mərkəzində olmuş, istər onların arxeologiyası və şəhər quruculuğuna [1], istər müxtəlif dövrlərdə sosial-iqtisadi, siyasi həyatına [2] dair tədqiqatlar aparılmış, monoqrafiyalar nəşr edilmişdir. Şəhərlərin tarixinə maraq ənənəsi keçən yüzilliyin 80-ci illərinin sonlarına qədər davam etsə də, dövlət müstəqilliyinin bərpasından sonra

---

[1] Джафарзаде И.М. Историко-археологический очерк старой Гянджи. Баку, Изд-во АН Азерб. ССР, 1949, 104 с.; Джидди Г.А. Средневековый город Шемаха (IX-XVII века). Баку, Элм, 1981, 176 с.; Ашурбейли С.Б. Очерк истории средневекового Баку. Баку, Изд-во АН Азерб. СССР, 1964, 336 с.; Nərimanoğlu F. Ulu Gəncə. Bakı: İşıq, 2000, 160 s.

[2] Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана XIX в. Баку, Изд-во АН Азербайджанской СССР 1967, 198 с.; Yenə onun. Города и городское ремесло Азербайджана в XIII-XVII вв. Баку, Элм, 1982, 236 с.; Musayev M.Ə. XIX əsrdə Bakı şəhərinin ticarəti (1883-1900-cü illər). Bakı: Elm, 1972, 194 s.; Назаренко В.М., Назаренко К.С. Транспортное обеспечение внешнеэкономической деятельности. Москва: Центр экономики и маркетинга, 2000, 512 с.; Алиев Ф.М. Города северного Азербайджана во второй половине XVIII века. Баку: Изд-во АН. Азерб. ССР, 1960, 135 с.; Альтман М.М. Исторический очерк города Гянджа. Баку: Изд-во АН. Азерб. ССР, 1949, 61с.; Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку: Изд-во АН. Азерб. ССР, 1954, 501 с.; Мурадалиева Э.Б. Города Северного Азербайджана во второй половине XIX в. Баку: Азгосуниверситет, 1990; Nərimanoğlu F. İstiqlal mücadiləmizin beşiyi. Bakı: Nurlan, 2003, 120 s.; Əhmədov Q.M., Onullahi S.M. Gəncənin qədim və orta əsrlər tarixi // Gəncə (tarixi oçerk). Bakı: Elm, 1994, 116 s.

keçən 20 il ərzində Sumqayıt istisna olmaqla [1], ölkə şəhərlərinin, o cümlədən Gəncənin sosial-iqtisadi və mədəni həyatını özündə əks etdirən ayrıca tədqiqat əsərinə demək olar ki, rast gəlinmir. Bununla belə Gəncə şəhər əhalisinin azadlıq uğrunda mübarizəsi, dövlət müstəqilliyinin bərpası uğrunda səyləri, 20 yanvar faciəsinə Gəncə əhalisinin reaksiyası, erməni quldurlarına qarşı şəhərin sayseçmə oğullarının ölüm – dirim mübarizəsi, Xocalı soyqırımına qarşı kəskin etirazlar kimi məsələlər Ə.İsayevin "Gəncə və gəncəlilər" kitabında özünə müəyyən qədər yer almışdır [2].

Gəncənin müxtəlif tarixi dövrlərdə sosial-iqtisadi tarixini özündə əks etdirən əsərlərdən biri də 1994-cü ildə nəşr edilmiş "Gəncə (tarixi oçerk)" məqalələr toplusudur. Həmin topluda B.Qurbanov, E.Qədirova, T.Qaffarovun yazdığı "Gəncə 1946-1990-cı illərdə" iri həcmli məqaləsində müharibədən sonrakı dövrdə, ələlxüsus 70-80-ci illərdə şəhər həyatının bütün sahələrinə aid, 90-cı illərin əvvəlləri üçün isə sosial-iqtisadi vəziyyətə dair maraqlı məlumatlara rast gəlmək olur [3].

2004-cü ildə işıq üzü görmüş "Gəncə şəhərinin tarixi" adlı məqalələr toplusundakı M.Yusifovun "Heydər Əliyev-İlham Əliyev kursu müasir mərhələdə inkişafımızın təməlidir" mövzusunda iri həcmli məqaləsində müasir dövrdə Gəncə şəhərinin ictimai-siyasi həyatı, şəhərdə inşa edilən sənaye, ticarət, mədəniyyət, idman və s. müəssisələr haqqında məlumatlar verilmişdir [4]. Yenə həmin topludakı E.Mehdiyevin "Heydər Əliyev və Gəncənin sosial-iqtisadi inkişafı" [5] məqaləsində Heydər Əliyevin keçən yüzilliyin 70-80-ci illərində respublikaya rəhbərliyi dövründə Gəncədə bir çox fabrik və zavodların, məişət müəssisələrinin, mədəniyyət və səhiyyə obyektlərinin inşasından, Gəncənin ölkənin ikinci sənaye şəhərinə çevrilməsindən bəhs olunur.

2010-cu ildə nəşr edilmiş "Gəncə tarixinin aktual problemləri" adlı topluda Gəncənin Azərbaycanın Dövlət müstəqilliyi uğrunda mübarizəsi, müstəqilliyimizin möhkəmləndirilməsi və s. kimi məsələlərə aid müəyyən

---

[1] İsmayılov A.Z. Sumqayıt – SSRİ-nin süqutunun başlanğıcı. Bakı: Çağoğlu, 2010, 203 s.

[2] İsayev Ə.M. Gəncə və gəncəlilər. Bakı: QAPP-POLİQRAF NPK, 2002, 462 s.

[3] Qurbanov B.S, Qədirova E.H., Qaffarov T.B. Gəncə 1946-1990-cı illər // Gəncə (tarixi oçerk). Bakı: Elm, 1994, s.130-152.

[4] Yusifov M.İ. Heydər Əliyev – İlham Əliyev kursu müasir mərhələdə inkişafımızın təməlidir // Gəncə şəhərinin tarixi. Bakı: Nurlan, 2004, s.8-15.

[5] Mehdiyev E.M. Heydər Əliyev və Gəncənin sosial-iqtisadi inkişafı //Gəncə şəhərinin tarixi. Bakı: Nurlan, 2004, s.241-253.

materiallar vardır. Bu materiallar içərisində A.Cavadovun "İlham Əliyev və Gəncə[1] adlı məqaləsi dövlət müstəqilliyimizin bərpasından sonra Gəncənin ictimai-siyasi həyatına aid maraqlı faktlarla zəngindir. Yenə həmin topluda nəşr olunmuş M.Əlizadənin "Müstəqillik illərində Gəncənin sosial-iqtisadi inkişafı" [2] adlı məqaləsində müəllif tərəfindən dövlət müstəqilliyinin bərpasından sonra şəhərin sosial-iqtisadi inkişafına dair fakt və məlumatlar verilir.

2012-ci ildə işıq üzü görmüş "Gəncə şəhərinin tarixi. Elmi-praktik konfransın materialları"ndakı V.D.Abbasovun "İlham Əliyev və Gəncə" [3] məqaləsində ölkə başçısı İlham Əliyevin Gəncəyə xüsusi qayğı və diqqətindən bəhs edilir.

A.Şəkərəliyevin "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər" adlı monoqrafiyasında Azərbaycanın və eləcə də Gəncənin sosial-iqtisadi həyatı ilə bağlı maraqlı məlumatlar yer alıb[4]. Bu əsərdə bazar iqtisadiyyatı şəraitində Azərbaycan şəhərlərinin, o cümlədən Gəncənin ticari əlaqələri, dövlətin nəqliyyat siyasətində bu şəhərin yeri, bu sahədə görülən tədbirlər və s. faktlarla şərh olunur.

Dövlət müstəqilliyimizin bərpası və qorunub saxlanılması uğrunda mübarizədə Gəncənin xüsusi rolu vardır. Dövlətçiliyimizə edilən qəsdlər – 1993-cü il iyun qiyamı və 1994-cü il oktyabr dövlət çevrilişinə cəhd, onların qarşısının alınmasında gəncəlilərin fəal iştirakı ulu öndər Heydər

---

[1] Cavadov A.Ş. İlham Əliyev və Gəncə // Gəncə tarixinin aktual problemləri. Gəncə: Elm, 2010, s.232-238.

[2] Əlizadə M.İ. Müstəqillik illərində Gəncənin sosial-iqtisadi inkişafı // Gəncə tarixinin aktual problemləri. II elmi-praktik konfransın materialları. Gəncə: Elm, 2010, s.248-255.

[3] Abbasov V.D. İlham Əliyev və Gəncə // "Gəncə şəhərinin tarixi". Elmi-praktik konfransın materialları. Bakı: Kooperasiya, 2004, s.254-256.

[4] Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: İqtisad Universiteti, 2009, 415 s.; Abutalıbov H.İ. Heydər Əliyev: nura qərq olmuş mənalı ömrün parlaq səhifələri. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Azərbaycan, 2003, s.74-81; Aslanlı A.A. Haydar Aliyev döneminde Azerbaycanın dış politikası. Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi. İstanbul, 2007, 309 s.; Heydər Əliyev və Gəncə. Bakı: Şərq-Qərb, 1999, 156 s.; Qəsd. Azərbaycan oktyabr 1994-mart 1995. Bakı: Azərbaycan, 1995; Qurtuluş. Bakı: Azərbaycan, 2002, 468 s.;

Əliyevin həyat və fəaliyyəti ilə bağlı əsərlərdə [1], dissertasiyaların avtoreferatlarında[2] və elmi məqalələrdə[3] öz əksini tapmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsində Gəncənin rolu, şəhərin sosial-iqtisadi və mədəni sahədə inkişafına aid məlumatlar ümumiləşmiş əsərlərdə, o cümlədən VII cildlik "Azərbaycan tarixi"nin 7-ci cildində öz əksini tapıb.[4]

Problemin ayrı-ayrı sahələrinə aid fakt və məlumatların kifayət qədər olmasına baxmayaraq qeyd edilməlidir ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin tarixi konkret tədqiqat mövzusu olmamışdır.

**Dissertasiyanın mənbə bazası.** Dissertasiya mövzusunun araşdırılması üçün istifadə olunan mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar: Azərbaycan dövlət xadimlərinin nitq, məruzə və əsərləri; çap olunmuş rəsmi sənədlər, statistik toplular, məcmuələr, arxiv materialları; dövri mətbuat.

Ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimivyətə gəlişindən sonra dövlətçiliyimizi möhkəmləndirmək sahəsində görülən işlər, aparılan müxtəlif istiqamətli islahatlar Gəncəyə səfərləri zamanı etdiyi nitq və

---

[1] Bayramov Q.M.Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı: Təhsil, 2004, 262 s.; Əlizadə M.İ. Milli müdrikliyin Heydər Əliyev zirvəsi. Bakı: Bakı Universiteti, 2006, 751 s.; Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 322 s.; Şabanov M.S. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, 242 s.; Абдуллазаде Ф.Г. Гейдар Алиев: политический портрет. Харьков: изд-во Форт, 2003, 20 с.

[2] Ağamalı F.R. Dövlətçiliyimizin İlham Əliyev mərhələsi. Bakı: Oskar, 2005, 279 s.; Daşdəmirov F.H. Erməni təcavüzkarları və havadarlar. Faktlar ifşa edir. Bakı: Gənclik, 2005, 103 s.; Əroğul Ə.İ. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası. Bakı: Təknur, 2011, 319 s.; Əziz B.O. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2008. 223 s.; Alıyev H.A. Sumqayıt şəhərinin tarixi. T.ü.e.d. Dis. avtoreferat. Bakı: Azərnəşr, 2013, 51 s.

[3] Xudiyev N.M. Dahi xilaskar // Müstəqil dövlətimiz və parlamentimiz. Bakı, Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2001, s.112-137; Mahmudov Y.M. Ümumdünya tarixinin azərbaycanlı dahisi Azərbaycan, 2013, 4 may, №95, s.7 //Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Azərbaycan, 2003, s.107-123.

[4] Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2008, 608 s.; Məmmədov F.N. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin əvvəllərinə qədər). Bakı: Elm və təhsil, 2011, 474 s.; Məmmədov İ.M. Azərbaycan tarixi. Bakı: Adiloğlu, 2005, 458 s.

çıxışlar tədqiqat mövzusu üçün qiymətli mənbədir[1]. Onun 1993-cü ilin iyununda Gəncə qiyamı, 1994-cü ildə Gəncədə hazırlanan dövlət çevrilişinə cəhd zamanı xalqı mübarizəyə çağırışı ilə bağlı nitqləri, sonrakı illərdə həmin hadisələrin təhlili ilə bağlı məruzələri, Gəncəyə səfərləri zamanı sosial-iqtisadi problemlərlə bağlı tapşırıq və tövsiyələri böyük maraq doğurur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildən başlayaraq Gəncəyə çoxsaylı səfərləri, müxtəlif idman, səhiyyə, nəqliyyat, sənaye obyektlərinin açılışı zamanı etdiyi nitqlər, şəhər rəhbərliyinə verdiyi tapşırıq və tövsiyyələr problemi öyrənməkdə mənbə rolunu oynamışdır [2].

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı 2004 və 2009-cu illərdə qəbul edilmiş Dövlət Proqramlarından da tədqiqat zamanı mənbə kimi istifadə edilmişdir[3]. Həmin dövlət sənədlərində Gəncənin sosial-iqtisadi inkişafı ilə bağlı bir çox məqamlar öz əksini tapmışdır. Tədqiqat işində daha çox istifadə edilmiş mənbələr çap olunmuş statistik toplular və məcmuələrdi[4]. Həmin statistik toplu və məcmuələrdə dövlət müstəqilliyinin bərpasından sonra Gəncədə şəhər həyatının demək olar ki, bütün sahələri

---

[1] Əliyev H.Ə. Müstəqillik yollarında. II cilddə. 2-ci cild, Bakı: Azərbaycan, 1997, 446 s.; Əliyev H.Ə. Minilliklərin qovşağında. Bakı: Qızıl Şərq, 2001, 183 s.; Qətiyyətin təntənəsi. Sənədli xronika. Bakı: Səhər, 1995, 848 s.; Qayıdış (1990-1993) Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, 792 s.; Yeni Azərbaycan Partiyası 10 il. Bakı: Azərbaycan, 2002, 215 s.

[2] Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə və Goranboy rayonuna səfəri. “Azərbaycan” qəz., 22 yanvar 2012-ci il.

[3]Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrasının gedişi barədə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin hesabatı. Bakı, 2007, 97 s.; Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər). Bakı, 2008, s.634; Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrasının yekunları. Bakı, 2009, s.83.

[4] Azərbaycan statistik göstəriciləri – 2006. Bakı: Şəfa, 2006, 867 s.; Azərbaycan regionları. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2002, 605 s.; Gəncənin statistik göstəriciləri (2000-2004). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə, 2005, 99 s.; Gəncənin statistik göstəriciləri (2000-2009). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə, 2010, 110 s.; Müstəqil Azərbaycan – 10 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2001, 694 s.; Gəncə şəhərinin sosial göstəricilərinə dair statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Gəncə Statistika idarəsi. Gəncə, 2014, 72 s.

ilə bağlı olduqca maraqlı rəqəmlər öz əksini tapmışdır. Tədqiqatda Azərbaycan Respublikası Milli Məclisinin arxivi (ARMMA)[1], Azərbaycan Səhiyyə Nazirliyinin arxivi (ASNA) [2] , Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun arxivi (AMEATİA)[3], Gəncə Şəhər İcra Hakimiyyətinin arxivi (GŞİHA)[4], Gəncə Şəhər Arxiv İdarəsi (GŞAİ)[5], Gəncə Şəhər Statistika İdarəsi (GŞSİ)[6], Gəncə Dövlət Universitetinin cari arxivi (GDU-nun cari arxivi)[7], Azərbaycan MEA-sı Gəncə Elm Mərkəzinin cari arxivi (AMEAGEM cari arxivi) [8] , Azərbaycan Dövlət Aqrar Universitetinin cari arxivində (ADAU-nin cari arxivi) [9] hifz olunan materiallardan istifadə olunmuşdur. Dissertasiyanın yazılmasında şəhərin sosial-iqtisadi həyatına, təhsil və səhiyyəsinə dair maraqlı məqalələri özündə əks etdirən mətbu orqanlarından da istifadə edilmişdir. Bu baxımdan "Azərbaycan", "Respublika", "Gəncənin səsi" qəzetləri xüsusilə qeyd edilməlidir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Araşdırılan mövzunun indiyədək xüsusi tədqiqat obyekti olmaması amilini və müasir dövrdə problemin aktuallığını nəzərə alaraq, hazırkı dissertasiyada qarşıya qoyulan əsas məqsəd, zəngin faktoloji material əsasında Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Gəncənin sosial-iqtisadi və mədəni həyatını hərtərəfli öyrənməkdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Azərbaycanın dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması uğrunda mübarizədə Gəncə problemini çoxsaylı mənbə və ədəbiyyatlar əsasında tədqiq etmək;
- Dövlət müstəqilliyinin bərpasından keçən 20 il ərzində şəhərin ərazisinin yeni tikililər hesabına genişlənməsi haqqında faktoloji materialları tarixi dövriyyəyə gətirmək;

---

[1] Azərbaycan Respublikası Milli Məclisinin arxivi. 1991-2010-cu illər.

[2] Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin arxivi. 1991-2010-cu illər.

[3] Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun arxivi. 1991-2010-cu illər.

[4] Gəncə Şəhər İcra Hakimiyyətinin arxivi. 1991-2010-cu illər.

[5] Gəncə Şəhər Arxiv İdarəsi. 1991-2010-cu illər.

[6] Gəncə Şəhər Statistika İdarəsi. 1991-2010-cu illər.

[7] Gəncə Dövlət Universitetinin cari arxivi. 1991-2010-cu illər.

[8] Azərbaycan MEA-sı Gəncə Elm Mərkəzinin cari arxivi. 1991-2010-cu illər.

[9] Azərbaycan Dövlət Aqrar Universitetinin cari arxivi. 1991-2010-cu illər.

- 20 il ərzində şəhər əhalisinin təbii artım dinamikasını araşdırmaq. Şəhər əhalisinin artımında ermənilərin təcavüzü nəticəsində qaçqın və köçkünlərin də yerini müəyyənləşdirmək;

- 2004 və 2009-cu illərdə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafına dair birinci və ikinci Dövlət Proqramlarının icrasına uyğun Gəncə şəhərinin infrastrukturundakı dəyişiklikləri izləmək;

- Gəncənin sənaye və ticarət həyatının çoxsaylı mənbə və ədəbiyyatlar əsasında mümkün qədər tam mənzərəsini yaratmaq;

- Şəhərin nəqliyyat və rabitə sisteminin yenidən qurulması problemini tədqiq etmək;

- Ümumölkə miqyasında keçirilən sosial islahatların Gəncə şəhər əhalisinin vəziyyətinə təsirini araşdırmaq;

- Dövlət müstəqilliyinin bərpasından keçən 20 il ərzində şəhərin təhsil sistemində, elmində və mədəni-maarif ocaqlarındakı canlanmanı təcəssüm etdirmək;

- Şəhər həyatının ən vacib sahələrindən biri olan səhiyyə sistemindəki islahatlara rəğmən Gəncənin səhiyyəsinin öyrənilməsi.

**Dissertasiya işinin metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını müstəqil və obyektiv elmi tədqiqat prinsipləri, problemlərin şərhində tarixilik və sistemlilik, tarixi materiallara istinadən qoyulan məsələlərin tədqiqi, çıxarılan nəticələrdə dəqiqlik və analitik təhlil əsasında yanaşma üsulları, nəşr olunmuş statistik məcmuələrin və arxiv materiallarının, mənbələrin və ədəbiyyatların kompleks təhlili, ümumiləşdirilməsi, proseslərin səbəb-nəticə əlaqələrinin üzə çıxarılması metodları təşkil edir. Öyrənilən problemə tarixi-siyasi yanaşma hər hansı siyasi təmayüldən və təsirdən uzaq olub, mənbə və ədəbiyyatların obyektiv araşdırılmasına və təhlilinə əsaslanır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyı aşağıdakı məsələlərdə öz əksini tapmışdır. Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq:

- 1991-2010-cu illər xronoloji çərçivəsi daxilində Gəncə şəhərinin sosial-iqtisadi tarixinin araşdırılmasına təşəbbüs göstərilmişdir;

- Dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi uğrunda gəncəlilərin mübarizəsi çoxsaylı mənbə və ədəbiyyatlar əsasında araşdırılmışdır;

- Dissertasiyada dövlətçiliyimizə qəsdlər – Gəncədə 1993-cü ilin iyun qiyamının, 1994-cü il oktyabrın 4-də dövlət çevrilişinə cəhdin xalqımızın

böyük oğlu Heydər Əliyev tərəfindən qarşısının alınması kimi məsələlər ətraflı təhlil edilmişdir.

- 1991-2010-cu illərdə yeni tikililər hesabına ərazinin genişlənməsi, Gəncənin coğrafi mənzərəsindəki dəyişikliklər dissertasiyada ayrıca bir məsələ kimi tədqiq edilmişdir;
- Əhali artımı, şəhərdə gedən demoqrafik proseslər, cinsi və milli tərkib, əhalinin savadlılıq səviyyəsi də tədqiqatdan kənarda qalmamışdır;
- Şəhər infrastrukturunun müstəqilliyin bərpasından keçən 20 il ərzində yenilənməsi və inkişafı ilə bağlı məsələyə dair gətirilən fakt və məlumatlar;
- Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair qəbul edilmiş birinci və ikinci Dövlət Proqramlarının Gəncədə də uğurlu icrası, infrastrukturun yeniləşməsi, köhnə sənaye müəssisələrinin fəaliyyətinin bərpası, yenidən qurulması və yenilərinin inşası kimi məsələlərin tədqiqi, öyrənilməsi və tarixi dövriyyəyə daxil edilməsi;
- Nəqliyyat və rabitə sisteminin yenilənməsi sahəsində görülən işlərin də tarixi dövriyyəyə gətirilməsi;
- Elm, təhsil, mədəni-maarifin vəziyyətini, səhiyyə sisteminin yenidən qurulmasını özündə əks etdirən fakt və məlumatların təhlili əsasında ümumiləşmələrin aparılması.

**Tədqiqatın eimi-nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiyanın materiallarından, çıxarılmış elmi nəticələrindən aşağıdakı istiqamətlərdə istifadə edilə bilər:

- Tədqiqat işi müasir Azərbaycan tarixşünaslığına öz töhvəsini verir və tədqiqatda ilk dəfə dövriyyəyə daxil edilmiş arxiv sənədlərindən, faktiki və statistik materiallardan Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda gedən mübarizə tarixinə, ölkə şəhərlərinin 1991-2010-cu illər tarixinə dair elmi tədqiqatların aparılmasında istifadə edilə bilər;
- Tədqiqatın ümumiləşdirilmiş və sistemləşdirilmiş təcrübəsi, nəticələri gələcəkdə bu problemə həsr ediləcək əsərlərin yazılmasında əhəmiyyətli rol oynaya bilər;
- Azərbaycan şəhərlərinin tarixinə həsr edilmiş elmi-praktik konfransların, elmi simpoziumların təşkilinə də öz töhvəsini verə bilər;
- Mühazirə kurslarında, xüsusi seminarlarda, seçmə fənnlərin tədrisində, magistratura pilləsində, müəllimlərin praktik fəaliyyətində faydalı ola bilər;
- Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün milli-azadlıq mücadiləmizə aid fakt və məlumatlar dəyərli ola bilər;

- Dissertasiya həmçinin Azərbaycan şəhərlərinin müasir tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün də maraqlı ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasında iki dəfə müzakirə olunmuş və müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanm mövzusu AMEA-nın nəzdində fəaliyyət göstərən Tarix üzrə Əlaqələndirmə Şurasının 2013-cü il 4 mart tarixli iclasında qeydiyyata alınıb.

Tədqiqatın mövzusuna aid Azərbaycanda və xaricdə nəşr edilən elmi məcmuələrdə, habelə elmi konfransların materiallarında 10 elmi məqalə və tezis çap edilmişdir. Həmin məqalə və tezislərdə dissertasiyanın əsas məzmunu, başlıca müddəa və nəticələri öz əksini tapır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya Giriş, doqquz yarımfəsili əhatə edən dörd fəsil, Nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, istifadə olunmuş mənbə və ədəbiyyatlar təhlil edilmiş, dissertasiya işinin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, xronoloji çərçivəsi, nəzəri-metodoloji əsası, elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Tədqiqatın **"Gəncə Azərbaycanın dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması dövründə (1989-1994-cü illər)"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir: **"Gəncə Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda mübarizədə"** və **"Gəncə dövlət müstəqilliyinin qorunub saxlanılması dövründə"**. Birinci fəsildə aparılan araşdırılmalardan məlum olur ki, Azərbaycanın ikinci iqtisadiyyat və mədəniyyət mərkəzi kimi tanınan Gəncə şəhəri bütün dövrlərdə olduğu kimi XX əsrin 80-ci illərinin sonlarında da milli-azadlıq mücadiləmizin önündə getmiş, Azərbaycanın imperiya boyunduruğundan xilas olmasında, dövlət müstəqilliyinə qovuşmasında böyük rol oynamışdır.

1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən ölkənin ərazi bütövlüyünə və vətəndaşların konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ - mərhələ həyata keçirilirdi.[1]

Milli müstəqillik uğrunda Azərbaycan xalqının başladığı bu mücadilədə həmişə olduğu kimi Gəncə əhalisi yenə də öndə gedirdi. Bu coşğun xalq hərəkatında ən böyük qələbə 1989-cu il dekabr ayının 30-da qədim Gəncənin tarixi adının bərpa edilməsi oldu [2].

Azərbaycan rəhbərliyinin hadisələrə laqeyd və passiv münasibəti ölkənin suveren hüquqlarının Ermənistan SSR tərəfindən tapdalanmasına səbəb oldu.

Moskvanın Azərbaycana qarşı qərəzli siyasət yeritməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazları artırırdı. Getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədi ilə Bakıya qoşun yeridildi. Sovet ordusunun hücumu vaxtı 131 nəfər öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu. Xalqa qarşı əsl qətliam törədildi. Sovet ordusunun Azərbaycan

---

[1] Əliyev H.Ə. Minilliklərin qovşağında. Bakı: Qızıl Şərq, 2001, 27 s.
[2] Əliyeva A. Nələr çəkmiş başın sənin. "Gəncənin səsi" qəz., 22 yanvar 1993-cü il.

xalqına qarşı törətdiyi qətliam məmləkətin hər yerində kütləvi etirazlara səbəb oldu, eləcə də qədim Gəncəni sarsıtdı. Şəhər təlatümə gəldi. Yanvarın 21-də Gəncə Şəhər Sovetinin fövqəladə sessiyası qanlı cinayəti qətiyyətlə pislədi[1]. 1990-cı il yanvarın 21-də Heydər Əliyev ailəsi ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib burada təşkil olunan etiraz mitinqində iştirak etdi və mərkəzi hakimiyyət tərəfindən qanunsuz olaraq Bakıya qoşun yeridilməsini, bu qanlı aksiyanı pisləyən sərt bəyanat verdi.[2]

Xalqın tələbi ilə çağırılmış Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul etdi[3]. 1991-ci il oktyabrın 18-də “Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı” Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul olundu[4]. Bu tarixi sənəddə Azərbaycan dövlətinin müstəqil, unitar və dünyəvi dövlət olması qeyd olunurdu.

Xalq müstəqil dövlətçiliyini qurmaq, onu inkişaf etdirmək, möhkəmləndirmək və müdafiə etmək yolunda ağır məşəqqətlərlə üzləşdi. Ermənilərin xəyanətkarlıqlarına qarşı digər yerlərdə olduğu kimi Gəncədə 1991-ci il dekabrın 16-da könüllülərdən ibarət milli batalyon yaradıldı. Bir qədər sonra şəhərdə fövqəladə müdafiə qərargahı təşkil edildi[5].

Erməni quldurları Rusiyanın Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə əlbir olaraq Xocalı soyqırımını törətdilər. Nəticədə dinc əhalidən 613 nəfər xüsusi amansızlıqla öldürüldü, 487 nəfərə ağır bədən xəsarəti yetirildi, 1275 nəfər girov götürüldü[6].

Xocalı soyqırımı cəmiyyətdə siyasi gərginliyi daha da artırdı. 1992-ci il martın 6-da Mütəllibov rejimi hakimiyyətdən getdi. Hakimiyyətə gələn AXC – Musavat tandemi liderlərinin hakimiyyəti dövründə ölkə daxilində

---

[1] İsayev Ə.M. Gəncə və gəncəlilər. Bakı, QAPP-POLİQRAF NPK, 2002, s.437.
[2] Mahmudov Y.M. Ümumdünya tarixinin azərbaycanlı dahisi Azərbaycan, 2013, 4 may, № 95, s.7 // Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Azərbaycan, 2003, s.36-37.
[3] Azərbaycan Respublikası Ali Sovetinin məcmuəsi. 1991, № 15-16, s.10-11.
[4] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA), f. 2941, s.1, iş 64, v.37.
[5] İsayev Ə.M. Gəncə və gəncəlilər. Bakı, QAPP-POL□QRAF NPK 2002, s.437.
[6] Əziz B.O. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2008, s.90.

vəziyyət gündən-günə pisləşdi[1]. Korpus komandiri Surət Hüseynovun 1993-cü ilin yanvarından öz qüvvələrini döyüş bölgələrindən çıxarıb Gəncəyə gətirməsi Azərbaycanda hökumət böhranının əsasını qoydu[2] Yaranmış vəziyyəti ulu öndər Heydər Əliyev belə qiymətləndirirdi: "Azərbaycan 1993-cü ilin əvvəllərindən artıq parçalanırdı, parçalanmışdı da"[3] .

Olduqca təhlükəli vəziyyət yaranmışdı. İyun 4-də Gəncədə hərbi qiyam baş verdi. Qiyamı yatırmaq üçün siyasi bacarığı olmayan iqtidar zora-silaha əl atdı. Qardaş qırğını başladı[4]. Gəncədə tökülən qanlar şəhər əhlini ayağa qaldırdı. Mövcud iqtidar əlacsız qalıb, kömək üçün Heydər Əliyevə müraciət etdi. O, Bakıya gəldi və vəziyyətlə yerindəcə tanış olmaq qərarını verdi[5]. Heydər Əliyev iyun ayının 13-də Gəncə şəhərinə getdi. Sonralar həmin hadisəni ulu öndər belə xatırlayırdı: "... mən Gəncəni heç vaxt belə ağır, faciəli vəziyyətdə görməmişdim"[6]. İyunun 15-də Gəncədən qayıdan Heydər Əliyevi Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası Ali Sovetin sədri seçdi[7]. Aparılan danışıqlara baxmayaraq Surət Hüseynovun hərbçiləri Gəncədən Bakıya doğru hərəkətə başladı. İyunun 20-də Ali Sovetin, Prezident aparatının, Nazirlər Kabinetinin, ayrı-ayrı nazirliklərin və baş idarələrinin iştirakı ilə müşavirə keçirilmişdir. Müşavirədə Gəncə hadisələri və yaranmış ictimai-siyasi vəziyyət müzakirə olundu[8]. İyunun 27-29-da Surət Hüseynovla danışıqlar aparılmış, ona tabe olan hərbi bölmələr Bakı ətrafından çəkilərək Ermənistan-Azərbaycan münaqişəsi zonasına göndərilmişdi. İyunun 30-da Surət Hüseynova etimad göstərilərək Azərbaycan Respublikasının baş naziri vəzifəsinə təyin olundu. Bununla da müdrik siyasətçi Heydər Əliyev ölkədə vətəndaş qarşıdurması təhlükəsini sovuşduraraq, Azərbaycanı real

---

[1] Məmmədov İ.M. Azərbaycan tarixi. Bakı: Alıoğlu, 2005, s.403.
[2] Şabanov M.S. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, s.159.
[3] Qurtuluş. Bakı: Azərbaycan, s.315.
[4] Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2008, s. 319.
[5] Qurtuluş. Bakı: Azərbaycan, 30 iyun 2002-ci il.
[6] Azərbaycan Prezidenti Heydər Əliyevin Gəncə səfəri. "Gəncənin səsi" qəz., 20 sentyabr 2002-ci il.
[7] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s.442-446.
[8] Kazımov S. Azərbaycanda dövlətçilik inkişaf edir. "Azərbaycan" qəz., 26 avqust 2002-ci il.

parçalanmadan xilas etdi[1]. Daha sonra müstəqilliyimizə qəsd edən qüvvələr öz çirkin əməllərindən əl çəkmir, paytaxtda və respublikanın digər iri yaşayış məntəqələrində siyasi sabitliyi pozmaq üçün hər vasitəyə əl atır, prezidentə sui-qəsd təşəbbüsləri, dövlət çevrilişinə cəhdlər göstərilirdi [2]. Heydər Əliyev iqtidarında öz məqsədi-nə nail ola bilməyəcəyini dərk edən Surət Hüseynov qərargahı Gəncədə yerləşən Səhra-cəbhə idarəsı yaratdı və bəyanat verdi ki, xalqın və dövlətin taleyinin həll edilməsi məsələsini öz üzərinə götürür [3]. 4 oktyabr 1994-cü ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev gecə saatlarında Milli Televiziya və Radio ilə xalqa müraciət etdi və bununla da o, xalqın köməkliyi ilə dövlətçiliyimiz üçün yaranmış təhlükəni aradan qaldırdı [4].

Dövlətçiliyimizə digər qəsd, 1995-ci ilin martında Daxili İşlər Nazirliyinin Xüsusi təyinatlıları tərəfindən Rövşən Cavadovun rəhbərliyi ilə edildi. Ulu öndər Heydər Əliyevin sarsılmaz iradəsi və xalqın birliyi sayəsində bu qəsdin də qarşısı alındı [5].

**“Dövlət müstəqilliyinin bərpasından sonra Gəncənin coğrafi mənzərəsi və əhalisi. Şəhərin infrastrukturunun yaxşılaşdırılması sahəsində görülən işlər”** adlı ikinci fəsli iki yarımfəsildən ibarətdir. **“Şəhərin ərazisi və əhalisi”** adlı birinci yarımfəsildə gətirilən fakt və məlumatlardan aydın olur ki, XX yüzilliyin 80-ci illəri üçün şəhərin ərazisi 107 kv. km idisə[6], 2000-ci il üçün 109 kv. km-ə[7], tədqiqat dövrünün sonu üçün 111 kv. km-ə çatmışdı[8].

Hesablamalara görə şəhərdə tədqiqat dövrünün sonu üçün 60000 fərdi ev və yaşayış binası (əsasən 4-5 mərtəbəli) vardır ki, onlarda da mənzillərin sayı bir o qədər idi [9]. Bununla yanaşı şəhərdə irili - xırdalı

---

[1] ARMMA, f. 2941, siy. 1, iş 716, v. 37, 64.
[2] Abutalıbov H.İ. Heydər Əliyev: nura qərq olmuş mənalı ömrün parlaq səhifələri. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Azərbaycan, 2003, s.74-81.
[3] Azərbaycan Respublikası. 1991-2001. Bakı: Yeni nəşrlər evi, 2001, s.109.
[4] Qəsd. Azərbaycan oktyabr 1994-mart 1995. Bakı: Azərbaycan, 1995, s.216.
[5] Əliyev H.Ə. Minilliklərin qovşağında. Bakı: Qızıl Şərq, 2001, s.40-41.
[6] Azərbaycan Sovet Ensiklopediyası. X cilddə, V cild, Bakı: Qızıl Şərq, 1981, s.394.
[7] Azərbaycan regionları. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2002, s.33.
[8] Yenə orada, s.33.
[9] GŞSİ, qovluq 5, s.1-2.

325-ə qədər küçə qeydə alınmışdı ki, onların da ümumi uzunluğu 525 km-dən çoxdur [1]. Tədqiqat dövrünün axırlarında şəhərdə 132 sənaye və 155 sahibkarlıq müəssisəsi, 3 ali və 4 elmi tədqiqat müəssisəsi, 4 orta ixtisas məktəbi, 11 nəqliyyat müəssisəsi, 24 xəstəxana, 32 poliklinika, 42 uşaq bağçası, 49 orta ümumtəhsil müəssisəsi, 7 musiqi məktəbi, 28 kitabxana, 15 klub, 1 filarmoniya, 1 olimpiya mərkəzi, 1 dövlət qoruğu, 258 tarix mədəniyyət abidəsi, 204 idman qurğusu, 4 mehmanxana və s. qeydə alınmışdır[2]. Küçə və xiyabanlar müasir işıqlandırma sistemləri ilə təchiz edilmişdir. Ölkə rəhbərliyinin tapşırığı ilə şəhərin su təchizatı sisteminin yenidən qurulmasının əhatə dairəsi 54%-dən 100%-ə çatdırılmışdır. Şəhərə saniyədə 1419 litr içməli su daxil olur[3].

Gəncə şəhəri tarix boyu kanalizasiya sisteminin olmamasından, əziyyət çəkmişdir. Tədqiqat dövründə şəhərin bu probleminin aradan qaldırılması sahəsində nəzərə çarpacaq işlər görüldü [4].

Gəncə şəhəri həm də çoxsaylı əhalisi olan bir şəhər kimi də tanınmış-dır. Belə ki, keçən yüzilliyin 80-ci illərinin sonları üçün şəhərin əhalisi 237 000 nəfər idisə[5], tədqiqat dövrünün sonu üçün bu rəqəm 316 300 nəfərə yüksəlmişdi[6].

Son beş il ərzində şəhərdə hər il orta hesabla 3920 körpə və ya hər gün təxminən 10-11 körpə dünyaya gəlmişdir. Hər il orta hesabla şəhərdə doğum səviyyəsi əhalinin hər 1000 nəfərinə 13-14 nəfər təşkil etmişdir [7]. Son beş il ərzində ömür uzunluğu 72,4 yaş, o cümlədən kişilər üçün 69,6 yaş, qaçqınlar üçün isə 75,2 yaş təşkil etmişdir ki, Gəncəni də bura aid etmək olar [8] . Keçən əsrin son onilliyi üçün əhalinin 98,2%-ni azərbaycanlılar (247175 nəfər), 0,013%-ni ləzgilər (130 nəfər), 0,94%-ni

---

[1] GŞİHA, qovluq 295, s.33.

[2] Gəncənin statisik göstəriciləri(2000-2009). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə, 2010, s.65-67.

[3] Vəliyev E. Gəncənin sosial-iqtisadi inkişafı yeni kefiyyət mərhələsinə qədəm qoyur. “Gəncənin səsi” qəz., 7 mart 2012-ci il.

[4] Yenə orada.

[5] Azərbaycan Sovet Ensiklopediyası. X cilddə, V cild. Bakı: Qızıl Şərq, 1981, s.394.

[6] Müstəqil Azərbaycan-20 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2011, s.107.

[7] Gəncənin statistik göstəriciləri (2000-2009). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə, 2010, s.30.

[8] Yenə orada, s.26.

ruslar (11701 nəfər), 0,011%-ni ermənilər, 0,134%-ni ukraynalılar (1766 nəfər), 0,045%-ni gürcülər (198 nəfər), 0,05%-ni tatarlar (424 nəfər), 0,03%-ni kürdlər (122 nəfər), 0,05%-ni yəhudilər və s. təşkil edirdi [1]. Tədqiqat dövrünün son onilliyi üçün isə Gəncə şəhər əhalisinin milli tərkibində elə bir dəyişiklik olmamışdır.

Əhalinin təhsil səviyyəsinə gəldikdə illərin müqayisəsi göstərir ki, rəqəmlər ildən-ilə yüksəlmişdir. Keçən yüzilliyin sonu üçün 299 342 nəfərlik şəhər əhalisinin 191 900 nəfəri demək olar ki, ali və orta təhsilli idi.[2]. Tədqiqat dövrünün sonu üçün isə şəhər əhalisinin 43300 nəfəri ali təhsilli, 136200 nəfəri tam orta təhsilli, 26500 nəfəri orta ixtisas təhsilli, 24500 nəfəri natamam orta təhsilli idi[3].

Tədqiqatın ikinci fəslinin **"Şəhərin infrastrukturunun yaxşılaşdırılması sahəsində görülən işlər"** adlı ikinci yarımfəslində dövlət müstəqilliyinin bərpasından keçən 20 il ərzində Gəncədə görülən abadlıq, tikinti-quruculuq işləri nəzərdən keçirilir. Qeyd olunur ki, 1991-1993-cü illərdə bu sahədə demək olar ki, heç bir iş görülməmişdi. Həmin vaxtlarda şəhəri görən ulu öndər Heydər Əliyev ürək ağrısı ilə demişdi:"...mən dəhşətə gəldim, çox narazı qaldım, ürəyim ağrıdı. Gəncəni belə görmək istəmirəm"[4].

Gəncədə quruculuq abadlıq işlərinə məhz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra başlanıldı və Gəncə şəhərinə, əhalisinə səmimi münasibəti olan ölkə başçısı İlham Əliyev tərəfindən davam etdirildi. Ulu öndərin göstərişi ilə qısa bir müddətdə minlərlə km. sahəyə asvalt döşəndi, səkilər düzəldildi. Ətrafdakı binaların fasadları milli üslubda təmir edildi[5]. Ən fərəhli işlərdən biri də tarixi abidələrin bərpası və yeni monumental abidələrin ucaldılması idi. Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2002-ci ilin sentyabr ayında Gəncə Olimpiya Kompleksinin istifadəyə verilməsi şəhərin gənc əhalisinin sağlamlığına qayğının təcəssümü idi[6].

---

[1] Gəncənin statistik göstəriciləri (2000-2009)..., s.27.

[2] Azərbaycan regionları. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2002, s.35.

[3] GŞSİ, qovluq 5, s.35.

[4] Nəsirov C. Abadlıq işləri davam etdirilir. "Gəncənin səsi" qəz., 22 yanvar 1993-cü il.

[5] İsayev Ə.M. Gəncə aybaay, ilbəil ucalır. "Gəncənin səsi" qəz., 30 yanvar 2007-ci il.

[6] Gəncə Olimpiya İdman Kompleksinin açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi, "Gəncənin səsi" qəz., 20 sentyabr 2002-ci il.

Ulu öndərin tövsiyələrindən sonra əslində bura əsl inşaat meydanına çevrildi. 407,3 min kv.m. sahəsi olan yaşayış mənzilləri, 50 çarpayılıq xəstəxana, növbədə 50 xəstə qəbul edən bir ambulator – poliklinika müəssisəsi, 1920 yerlik ümumtəhsil məktəbi, 560 yerlik məktəbəqədər uşaq müəssisəsi, sosial-mədəni obyektlər istifadəyə verilmişdir[1].

Qeyd olunan illər ərzində böyük şair Nizami Gəncəvinin məqbərəsində yenidənqurma işlərinə başlanıldı, XVI əsr karvansarası bərpa edildi, Şah Abbas məscidi ətrafında yenidənqurma işləri aparıldı. Çökək hamam bərpa edildi və burada dekorativ tətbiqi sənət mərkəzi yaradıldı [2]. Bunlardan başqa Dəyirman dairəsində müstəqilliyimizin rəmzi olan 11 metrlik "Ay-ulduz", Dədə Qorqud küçəsində "Şir-günəş" abidələri ucaldıldı, Comərd qəssab türbəsi bərpa olundu, Cavad xanın məzarı üzərində milli ornamentli məqbərə inşa edildi. Mərkəzi meydan yenidən quruldu və o gözəllik, abadlıq mərkəzinə çevrildi. Burada musiqili fəvvarələr kompleksi də inşa edildi[3].

Respublika prezidenti İlham Əliyevin 2004-cü il 11 fevral tarixində imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərmanı Gəncə şəhərinin də infrastrukturunun yeniləşməsində yeni səhifə açdı [4]. Şəhərin hər yerində tikinti-quruculuq işləri genişləndirildi, yeni ağac emalı, şüşə, metal konstruksiyalar istehsalı, kərpic və çınqıl istehsalı müəsissələri, gündəlik istehsal gücü 300 ton olan asfalt zavodu istifadəyə verildi.[5].

Qeyd olunan illərdə Gəncə-Qazax avtomobil yolunun Gəncə-Şəmkir, Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yollarının əsaslı şəkildə yenidən qurulması başa çatdırıldı [6]. Yenə həmin illərdə "Dinamo" və "Spartak"

---

[1] Gəncənin statistik göstəriciləri (2000-2009)..., s.57.
[2] İsayev Ə.M. Gəncəni tanımaq olmur. "Azərbaycan" qəz., 28 iyul 2006-cı il.
[3] İsayev Ə.M. Gəncə aybaay, ilbəil ucalır. "Gəncənin səsi" qəz., 30 yanvar 2007-ci il.
[4] Uğurlu siyasətin nəticələri. Bakı, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, 2009, s.5-11.
[5] İsayev Ə.M. Gəncə abadlaşır və inkişaf edir. "Azərbaycan" qəz., Bakı, 3 fevral 2005-ci il.
[6] Uğurlu siyasətin nəticələri. Bakı: Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, 2009, s.21.

idman cəmiyyətləri təmir olunmuşdur [1]. Gəncənin beynəlxalq hava limanı müasir standartlar səviyyəsində yenidən quruldu. 31 oktyabr 2006-cı ildə Gəncə olimpiya mərkəzinin üzgüçülük hovuzunun da açılışı oldu. Burada idman qurğusunun yardımçı otaqları, gimnastika salonu da istifadəyə verildi[2].

Heydər Əliyev fondunun təşəbbüsü ilə Gəncənin tarixi qapılarının köhnə yerində bərpası şəhərin abadlığının mühüm elementlərindən biri idi. "Ozan" və "Şərəfxanlı" məscidlərində, Mircəlal Paşayevin ev muzeyin-də, 4 saylı uşaq musiqi məktəbində, kamera orkestrininin binasında, 2 saylı mədəniyyət evində, "Xəlfəli" məscidində, alban məbədində təmir işləri aparılması və s. görülən işlərə əlavə olunmalıdır [3]. Şəhərin qərb hissəsində "Xatirə" parkı istifadəyə verilmişdir ki, onun da sahəsi 300 hektarı ötüb keçmişdir [4].

300 illik tarixə malik olan Xan bağının yenidən qurulması, florasının daha da zənginləşdirilməsi gəncəlilərin ürəyincə idi. Bu bağ zənginliyinə görə Azərbaycanın əsl Nəbatat bağı sayıla bilər [5]. Həyata keçirilən yenidənqurma, təmir-tikinti işləri zamanı müasir şəhərsalma qaydalarına ciddi riayət olunmaqla tarixi-mədəni irsə də həssaslıqla yanaşılırd [6]. Azərbaycanın dahi şairi və mütəfəkiri Şeyx Nizami Gəncəvinin məqbərəsinin ətrafında yenidənqurma işləri aparılmış, ümümi sahəsi 540 kv.m olan ikimərtəbəli Nizami Gəncəvi muzeyinin inşası başa çatdırılmışdı. "İmamzadə" dini kompleksinin abadlaşdırılması işi yekunlaşaraq İslam dünyası üçün böyük əhəmiyyət kəsb edən milli-memarlıq üslubunda çox böyük bir kompleks yaranmışdır. Şəhidlər Xiyabanı yenidən quruldu və burada 19,5 metr hündürlüyündə abidə ucaldıldı. Bundan əlavə, İkinci Dövlət proqramının icrasına uyğun olaraq 169 çoxmərtəbəli binanın fasadları klassik memarlıq üslubunda yenidən quruldu, meydan və

---

[1] Əhmədli C. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) üzrə Gəncə şəhərində həyata keçirilmiş tədbirlərin yerinə yetirilməsinin gedişi haqqında, "Gəncənin səsi" qəz., 14 noyabr 2008-ci il.
[2] Gəncə gözəlləşir, abadlaşır və ən müasir şəhərə çevrilir. "Azərbaycan" qəz., 1 noyabr 2006-cı il.
[3] Vəliyev E. Bağladığımız iri həcmli layihələr və digər işlər vaxtında uğurla həyata keçiriləcək. "Gəncənin səsi" qəz., 7 mart 2012-ci il.
[4] Məmmədov R. Xatirə parkı. "Gəncənin səsi" qəz., Gəncə, 11 may 2006-cı il.
[5] Gəncənin statistik göstəriciləri (2000-2004). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə, 2005, s.57.
[6] GŞAİ, qovluq 393, s.42-46.

parklarda işıq dirəklərinin sayı dörd dəfə artırıldı. ”Bakı” kinoteatrının yerində bir hektar ərazidə 6 mərtəbəli Gəncə Dövlət Filarmoniyasının bünövrəsi qoyuldu. Dövlət xadimi N.Nərimanovun adını daşıyan parkda geniş tikinti quruculuq işləri aparıldı və onun beş metr hündürlükdə büstü qoyuldu[1]. Eyni zamanda bu illər ərzində Bayraq meydanında 100 metr hündürlüyündə üç rəngli bayrağımız ucaldıldı. Küçələrin və yolların abadlaşdırılması və genişləndirilməsi işi davam etdirildi. Şəhər rabitə sistemi yenidən quruldu, yeni müasir tipli ATS-lər istifadəyə verildi, əhalinin qazla təminatında ciddi irəliləyişlər əldə edildi[2].

Dissertasiyanın üçüncü fəsli **“Dövlət müstəqilliyinin bərpasından sonra Gəncə şəhərinin iqtisadi və sosial həyatı”** adlanır. Bu fəslin **“İqtisadi islahatların Gəncə şəhərinin sənaye həyatında və ticarətində təcəssümü”** adlı birinci yarımfəslində dövlət müstəqilliyinin bərpasından keçən 20 illik zaman kəsiyində şəhərin sənaye həyatındakı ciddi təbəddülat nəzərdən keçirilir.

Gəncə Alüminium zavodu 90-cı illərin ortalarına qədər tənəzzülə uğramış, zavodun bir çox müsəssisələri öz fəaliyyətini dayandırmışdı. Yalnız 2008-ci ildə “DET AL” Alüminium MMC-nin təməli qoyuldu. Çox qısa zamanda bu sənaye nəhənginin fəaliyyəti bərpa edildi və kompleksə daxil olan bir çox müəssisələrin inşası başa çatdırıldı[3]. Zavodda ildə 100 000 ton alüminium istehsalı nəzərdə tutulmuşdu[4]. Əvvəllər mövcud olan “Billur” zavodu yenidən öz fəaliyyətini bərpa etdi. Zavodda ildə 180 000 manatlıq “Merkuri” televizorları da istehsal olunur[5]. Fəaliyyəti yenidən bərpa edilən Gəncə Cihazqayırma zavodunda müxtəlif rabitə avadanlığı və cihazlar istehsal edilir, həmin məhsulların xeyli hissəsi xarici ölkələrə ixrac olunur[6]. 2007-ci ildə Gəncə şəhərində “Daşkəsən filizsaflaşdırma” ASC-nin Gəncə polad kompleksinin inşasına başlanıldı və bu layihənin icra işləri 2008-ci ilin sonuna qədər başa çatdırıldı. Gəncə Avtomobil Zavodunun tikintisi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra

[1] GŞAİ, qovluq 2982, s.16-18.
[2] Vəliyev E. Bağladığımız iri həcmli layihələr və digər işlər vaxtında uğurla həyata keçiriləcək. “Gəncənin səsi” qəz.,7 mart 2012-ci il.
[3] AMEA TİEA, f. 1, s.19, iş 8953, v. 11-13.
[4] Azərbaycan Prezidenti İlham Əliyevin Gəncə şəhərinə və Goranboy rayonuna səfəri. “Azərbaycan” qəz., 22 yanvar 2012-ci il.
[5] GŞİHA, qovluq 45, s.27-32.
[6] GŞİHA, qovluq 6997.

Türkiyənin köməyi ilə yenidən bərpa edildi [1]. 2002-ci ilin fevral ayında Gəncə Toxuculuq Kombinatının bazasında "Gəncə Tikiş İstehsalat" SC-i və "Gəncə Tekstil" ASC-i yaradıldı.

Dövlət müstəqilliyinin bərpasından sonra Gəncədə yeyinti sənayesi böhrandan çıxdı. "Gəncə Şərab-2" zavodu yenidən bərpa edildi. 2006-cı ildə Gəncədə istifadəyə verilən "Jardin Royal" şokolad fabrikində 20-dən çox çeşiddə məhsul istehsal olunur [2]. İllik istehsalı 105 min ton olan "Fatoğlu" şirkəti, illik istehsal gücü 54 min ton dənüyütmə, 10 ton çörək, 7,5 ton makaron olan "Neon" şirkəti də tam gücü ilə fəaliyyət göstərir [3]. Tədqiqat dövründə Gəncədə istifadəyə verilmiş sənaye müəssisələrindən "Gəncə Qənnadı" ASC-nin süd emalı zavodunu, "Elba Kəsim və Emal Fabrikası"nı, "Gəncə Mebel", "İlin dörd fəsli" MMC-ni, "MFK" MMC-ni, "Gəncə Ağac Emalı" ASC-ni, "Metal-plastik" müəssisələrini və s. göstərmək olar [4].

Gəncə Azərbaycanın tarixən ticarət şəhəri kimi də tanınmışdır. Keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq şəhərin ticarət həyatında ciddi canlanma müşahidə olundu. Gəncə şəhərində pərakəndə əmtəə dövriyyəsi 2005-ci illə müqayisədə tədqiqat dövrünün sonu üçün 4,5 dəfə artaraq 507,2 mln. manat, xidmətlərin həcmi isə 226,4 manat olmuşdur. Bütün bunlarla yanaşı dövlət müstəqilliyinin bərpasından keçən 20 il ərzində Gəncənin xarici ticarət əlaqələri də bərpa olunmuş və ildən-ilə inkişaf etmişdir.

Dissertasiyanın üçüncü fəslinin **"Nəqliyyat və rabitə sisteminin yenidən qurulması"** adlı ikinci yarımfəslində dövlət müstəqilliyinin bərpasından sonra qeyd olunan sahədəki inkişaf nəzərdən keçirilir. Gəncə şəhər həyatının bu sahəsindəki ciddi dəyişikliklər 2000-ci ilin əvvəllərindən daha geniş vüsət aldı. Bu sahədə "Yeni ipək yolu" nun işə düşməsi əhəmiyyətli rol oynadı. Çünki, istər quru yolla və istərsə də dəmir yolu vasitəsi ilə beynəlxalq daşımalar bilavasitə Gəncədən keçirdi. Nəqliyyatın

---

[1] Qurbanov B.Ş, Qədirova E.H., Qaffarov T.B. Gəncə 1946-1990-cı illər Gəncə (tarixi oçerk). Bakı: Elm, 1994, s.140.

[2] Gəncə gözəlləşir, abadlaşır və ən müasir şəhərə çevrilir. "Azərbaycan" qəz., 1 noyabr 2006-cı il.

[3] Səfərov İ. 2008-ci il Gəncə şəhərinin iqtisadi və sosial inkişafı. "Gəncənin səsi" qəz., Gəncə, 5 sentyabr 2008-ci il.

[4] Gəncə yenidən iri sənaye şəhərinə çevrilir. "Azərbaycan" qəz., Bakı, 1 mart 2009-cu il.

inkişaf etdirilməsi həm də bazar iqtisadiyyatı şəraitində dünya ölkələrarası inteqrasiya proseslərinin paralel inkişafını tələb edirdi [1].

Dövlət müstəqilliyinin bərpasından sonra ölkədə rabitə sistemində də ciddi yeniləşmənin edilməsi günün vacib məsələlərindən idi. Şəhərdə ATS-lərin hamısı müasir elektron sistemli ATS-lə əvəz edilmişdi[2].

Tədqiqat işinin üçüncü fəslinin üçüncü yarımfəsli **"Sosial islahatların Gəncə şəhər əhalisinin vəziyyətinə təsiri"** adlanır. Burada qeyd olunur ki, yalnız 1993-cü ildən başlayaraq bu vacib sahənin hüquqi bazasının yaradılması istiqamətində mühüm addımlar atıldı və bütün qəbul edilən qanun və fərmanların icrası tədqiqat dövrünün sonuna qədər uğurla davam etdirildi [3].

Dissertasiyanın dördüncü fəsli **"Gəncədə təhsilin, mədəniyyətin və səhiyyənin təşkili"** adlanır. Fəslin **"Gəncənin tədris müəssisələri. Elm və mədəni-maarif ocaqları. Mətbuat."** adlı birinci yarımfəslində qeyd olunur ki, tədqiqat dövrünün sonu üçün şəhərdə 9030 körpəni əhatə edən 42 məktəbəqədər uşaq tərbiyə müəssisə [4], 47 806 şagird və 4504 müəllimi əhatə edən 49 ümumtəhsil məktəbi qeydə alınmışdı [5]. Əsası sovet dönəmində qoyulmuş 8 orta ixtisas təhsili müəssisəsi, dövlət müstəqilliyinin bərpasından sonra orta ixtisas təhsili sistemində aparılan islahatların, struktur dəyişikliklərinin nəticəsində tədqiqat dövrünün sonu üçün 4-ə enmişdi [6].

---

[1] Назаренко В.М., Назаренко К.С. Транспортное обеспечение внешнеэкономической деятельности. Москва: Центр экономики и маркетинга, 2000, с.78.
[2] Vəliyev E. Bağladığımız iri həcmli layihələr və digər işlər vaxtında uğurla həyata keçiriləcək. "Gəncənin səsi" qəz., 7 mart 2012-ci il.
[3] Məmmədov İ.M., Məmmədov Ç.İ. Azərbaycan tarixi (XX əsr-XXI əsrin əvvəlləri). Bakı, 2009, s. 277-283; YAP-ın I qurultayında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəz., Bakı, 23 dekabr 1999-cu il; "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Şəfəq" qəz., Bakı, 6 avqust 1997-ci il; ARSNA, Kollegiya materialları, qovluq 213, s.82-83; Azərbaycan tarixi. VII cild, Bakı, 2008, s.605; AMEA TİEA, f. 1, s.19, iş 8961, v.115.
[4] GŞSİ, qovluq 5, s.12.
[5] Yenə orada.
[6] Gəncənin statistik göstəriciləri (2000-2009). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə, 2010, s.42.

Gəncənin ali təhsil müəssisələrindən Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Dövlət Aqrar Universitetini qeyd edə bilərik. Tədqiqat dövrünün sonu üçün şəhərin ali məktəblərində 11 250 tələbə təhsil alırdı [1].

Dövlət müstəqilliyinin bərpasından sonra şəhərdə əhaliyə göstərilən mədəni-maarif xidmətinin səviyyəsi daha da yüksəldildi.Tədqiqat dövrünün sonu üçün şəhərdə 450 000 kitab fondu olan 28 kitabxana, 12 kitab müəssisəsi, 1 kinoteatr, 3 peşəkar teatr, 1 filarmoniya, 7 muzey, 139 mədəniyyət və istirahət parkı, 258 daşınmaz mədəniyyət abidələri qeydə alınmışdır.[2].

Gəncə respublikanın ədəbiyyat və incəsənət ocaqlarından biri kimi öz tarixi ənənələrini davam etdirməkdədir. Burada Respublika Yazıçılar, Rəssamlar, Bəstəkarlar, Juranalistlər İttifaqlarının, Teatr Cəmiyyətinin filialları, habelə Alimlər evi fəaliyyət göstərir.

Tədqiqat illərində şəhərdə 5000 tirajla nəşr olunan "Gəncənin səsi" və 1000 tirajla nəşr olunan "Novosti Qandji" qəzetləri, "Kəpəz", "Alternativ", "El", "Türkel" regional telekanalları fəaliyyət göstərmişdir.[3].

İstər sovetlər dönəmində və istərsə də dövlət müstəqilliyinin bərpasından sonra Gəncə respublikanın mühüm elm ocaqlarından biri kimi də şöhrət tapmışdır. Burada Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Elmi Mərkəzi, 4 Elmi-Tədqiqat İnstitutu fəaliyyət göstərir [4].

Tədqiqatın dördüncü fəslinin **"Gəncə şəhərində səhiyyənin təşkili və inkişafı"** adlı ikinci yarımfəslində bütün ölkədə olduğu kimi Gəncədə də səhiyyə islahatlarından və onun nəticələrindən bəhs olunur. Tədqiqat dövrünün sonunda şəhərdə 1414 həkim və 2665 orta tibb işçisinin xidmət göstərdiyi, 3120 çarpayılıq 24 xəstəxana, 32 ambulator-poliklinika müəssisəsi, qadın, uşaq ambulator-poliklinikaları qeydə alınmışdır [5].

Dissertasiyanın **"Nəticə"** hissəsində problem üzrə əsas yekunlar qeyd edilmiş və göstərilmişdir ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra da Gəncə ölkənin ikinci şəhəri olması ənənəsini davam etdirmişdir.

---

[1] GŞSİ, qovluq 5, s.12.

[2] Gəncənin statistik göstəriciləri (2000-2009). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə, 2010, s.44.

[3] GŞSİHA, qovluq 268, s.33-34.

[4] Qurbanov B.Ş, Qədirova E.H., Qaffarov T.B. Gəncə 1946-1990-cı illər Gəncə (tarixi oçerk). Bakı: Elm, 1994, s.144.

[5] GŞSİ, qovluq 8, s.8-9.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Gəncə şəhərinin coğrafi mənzərəsi - ərazisi haqqında // Tarix və onun problemləri. Bakı, 2012, № 3, s.170-175.
2. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Gəncə şəhərinin əhalisi / AMİU, Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. Bakı, 2012, s.188-189.
3. Gəncə Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası və qorunub saxlanılması uğrunda mübarizədə (1989 – 1994-cü illər) // GDU Elmi Xəbərləri. Gəncə, 2013, № 1, s.103-108.
4. Dövlət müstəqilliyinin bərpasından sonra Gəncə şəhərinin sənaye həyatı (1991-2012-ci illər) // Tarix və onun problemləri, Bakı, 2014, № 3, s.105-110 ( həmmüəllif: prof. F.N.Məmmədov).
5. Sosial islahatların Gəncə şəhər əhalisinin vəziyyətinə təsiri (1991-2011-ci illər) // Pedaqoji Universitet Xəbərləri, № 1, Bakı, 2014, s.106-108.
6. Изменения в инфраструктуре города Гянджи за годы независимости // Национальный Педагогичный Университет имени М.П. Драгоманова, Украинская Академия Наук, «Гiлея» науковой вестник, Выпуск 84 (№ 5), Киев, 2014, с.236-239.
7. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Gəncə şəhərinin nəqliyyat və rabitə sisteminin yenidən qurulması // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, № 4, Bakı, 2014, s.115-120.
8. Dövlət müstəqilliyinin bərpasından sonra Gəncə şəhərinin mədəni həyatı (1991-2011-ci illər) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, № 4, Bakı, 2015, s.203-211.
9. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Gəncə şəhərinin ticarət həyatı / Qafqaz tarixinin aktual məsələləri beynəlxalq konfransının materialları, Gəncə, 2015, s.211-213.
10. 1991-2011-ci illərdə Gəncə şəhərinin səhiyyəsinin inkişafına dair // GDU Elmi Xəbərləri. Gəncə, 2017, № 1, s.284-287.

**Н.А.Расулова**

# ГЯНДЖА В ПЕРИОД НЕЗАВИСИМОСТИ (1991-2010 гг.)

## РЕЗЮМЕ

Во **введении** обоснована актуальность темы, проанализированы использованные источники и литература, определены цель и задачи диссертационной работы, указаны хронологические рамки, теоретическо-методологическая основа, научная новизна и практическая значимость представленной работы.

В первой главе научного исследования **«Гянджа в период восстановления и сохранения государственной независимости Азербайджана»** исследуется роль Гянджи в национально-освободительном движении и в сохранении государственной независимости азербайджанского народа.

Во второй главе диссертации **«Географическая панорама и население Гянджи после восстановления государственной независимости. Совершенствование и улучшение инфраструктуры города»** раскрываются вопросы реконструкции городской инфраструктуры, расширения территории и демографические изменения в Гяндже, исследуемого периода.

В третьей главе научного исследования **«Экономическая и социальная жизнь Гянджи после восстановления государственной независимости»** отмечается, что новая страница в развитии промышленности и торговли Гянджи, была открыта непосредственно с приходом к руководству независимого Азербайджана Гейдара Алиева.

В четвертой главе диссертации **«Организация образования, культуры и здравоохранения в Гяндже»** исследуются реформы, проведенные в Азербайджане, которые способствовали серьезным изменениям в области образования, культуры и здравохранения Гянджи.

В **Заключении** диссертации определены итоги основных проблем, отмечается, что даже после восстановления государственной независимости Азербайджана, Гянджа продолжала традиционно оставаться вторым городом страны.

**N.A.Rasulova**

## GANJA IN INDEPENDENCE PERIOD (1991-2010 years)

### SUMMARY

Topicality of the theme was reasoned, resources and references used in this article were analyzed, purpose and duties of dissertation work were determined, its chronologic frame, theoretical-methodological grounds, scientific innovation and practical importance were shown in the **Introduction** section.

In the first part of this research titled as **“Ganja in restoration of Azerbaijan state independence and its preservation (1989-1994 years)”** place of Ganjain national-liberation movement and its role in preservation of state independence were interpreted.

The second part titled of dissertation as **“Geographical view and population of Ganja after restoration of independence. Works done in the field of improving infrastructure of the city”** deals with the widening of the territory of Ganja after gaining independence, increase of the population year after year, reconstruction works conducted in the city.

In the third part of the research titled as **“Economic and social life of Ganja after regaining of state independence”** it is described that national leader’s coming to the power for the second time has opened the new page in both industrial and trading life of Ganja city.

The fourth chapter of the dissertation entitled **"Organization of Education, Culture and Health in Ganja"** is interpreted as reflecting on the progress made in the country in serious progress in Ganja's education, culture and healthcare system.

In **“Summary”** section of dissertation main summaries on problem were indicated and it was stated that after regaining independence Ganja continued tradition to be the second city of the country.

Sifariş 87

Sayı 100 ədəd

“Ləman” nəşriyyat poliqrafiya MMC-də çap edilmişdir

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**НАРГИЗ АЙДЫН кызы РАСУЛОВА**

# ГЯНДЖА В ПЕРИОД НЕЗАВИСИМОСТИ
**(1991-2010 гг.)**

Специальность: 5503.02 – История Отечества

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2017**